Xüsusi buraxılış

Heydər Əliyev – xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 03-04 (791-792) | 9-15 Fevral 2015-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

"Ağstafa rayonunun 2014-cü ildə sosial-iqtisadi inkişafının yekunları və 2015-ci ildə qarşıda duran vəzifələr barədə" rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin hesabat MƏRUZƏSİ

Hörmətli yığıncaq iştirakçıları.
Hörmətli qonaqlar.

2014-cü il Azərbaycanın müstəqillik tarixində uğur və nailiyyətlərlə zəngin il kimi öz layiqli yerini tutdu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin balanslı və düşünülmüş siyasəti nəticəsində ölkəmizin dinamik sosial-iqtisadi inkişafı, əhalinin rifah halının daha da yaxşılaşması və Azərbaycanın beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəlməsi təmin edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş dinamik tərəqqi ölkəmizi regionun qüdrətli dövlətinə çevirdi.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun daha da gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Bu məqsədlə istehsal obyektlərinin və yeni iş yerlərinin yaradılması, sahibkarlığın inkişafına dəstək verilməsi təmin edilmişdir.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət kursu sayəsində Azərbaycan beynəlxalq aləmə uğurla inteqrasiya olunmuş, region və dünya ölkələri ilə səmimi və qarşılıqlı hörmətə əsaslanan əlaqələr qurmuşdur. Həmin təməl üzərində yaradılan bu günkü böyük iqtisadi potensial, toplanmış maliyyə resursları, enerji, ərzaq təhlükəsizliyi kimi məsələlərin uğurla həll edilməsi ölkəmizin tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürütməsinə imkan verir. Dünyada bizə dost ölkələrin sayının getdikcə artması Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin məntiqi nəticəsidir. Azərbaycan regionun aparıcı ölkəsi olmaqla yanaşı, dünyada sözü eşidilən, mövqeyi nəzərə alınan dövlət kimi qlobal məsələlərin həllində iştirak edir. Ölkəmizin bir çox təşəbbüsləri real layihələrə çevrilir və onların icrası ölkəmizə siyasi və iqtisadi nüfuzunu daha da artırır. Ölkəmiz beynəlxalq aləmdə öz mövqelərini əhəmiyyətli dərəcədə gücləndirmişdir.

2014-cü ildə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konkret irəliləyiş əldə olunmadı. Ermənistan rəhbərliyi öz ənənəsinə uyğun şəkildə qeyri-konstruktiv mövqeyini davam etdirərək bütün səylərini mövcud status-kvonu qoruyub saxlamağa, qoşunların təmas xəttində müxtəlif təxribatlar törətməklə beynəlxalq birliyin diqqətini yayındırmağa çalışır. Dövlət başçısı tərəfindən ordunun müasir silah-sursat, hərbi texnika ilə təchizatına xüsusi qayğı göstərilir. Azərbaycanda hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfə çoxdur. Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordusudur və qarşısına qoyulmuş istənilən vəzifəni icra etmək qüdrətindədir.

Bütövlükdə hesabat ilini xarakterizə edərək deyə bilərik ki, 2014-cü ildə Azərbaycan müstəqil, güclü və dinamik inkişaf edən ölkə statusunu daha da möhkəmləndirmişdir.

Hörmətli yığıncaq iştirakçıları.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 10 yanvar 2015-ci il tarixdə keçirilən Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclasında 2014-cü ildə ölkəmizin sosial-iqtisadi inkişafı və əhalinin maddi rifah halının artırılması istiqamətində əldə olunan nəticələr təhlil edilmiş, keçən ilin bütövlükdə ölkəmiz üçün uğurlu il olduğu qeyd edilmişdir. Həmin iclasda səsləndirilən faktlar bir daha təsdiq edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş və müdrik siyasətinin nəticəsində Azərbaycan iqtisadi inkişaf səviyyəsinə görə dünyada lider ölkələr sırasında öz yerinin saxlayır.

Son illər qeyri-neft sektorunda əldə olunan sürətli artım əyani şəkildə təsdiq edir ki, iqtisadi sahədə qarşıya qoyulmuş strateji vəzifələr tam həcmdə yerinə yetirilir. Hazırda ölkəmizin 50 milyard dollardan çox valyuta ehtiyatları vardır. Bu gün Azərbaycanın xarici borclarının Ümumi Daxili Məhsula nisbəti cəmi 8,5 faiz səviyyəsindədir ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab edilir.

Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında reallaşdırılan Azərbaycanın inkişaf strategiyası təkcə iqtisadi artıma və siyasi sabitliyin möhkəmləndirilməsinə deyil, insan kapitalının yüksəldilməsinə və sosial strukturların dəyişdirilməsinə yönəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, həyata keçirilən siyasətin, görülən bütün işlərin başlıca məqsədi Azərbaycan vətəndaşlarının layiqli həyat şəraitinin təmin edilməsidir.

Hörmətli yığıncaq iştirakçıları.

Birinci və ikinci Dövlət Proqramının icrası nəticəsində rayonun sosial-iqtisadi inkişafında ciddi uğurların əldə edilməsinin əsas bazasının formalaşması başa çatmışdır. 2014-cü il yeni Dövlət Proqramının icrasının ilk ili olaraq əvvəlki illərdə qazanılmış nailiyyətləri daha da artırdı. Dövlət Proqramlarının icra edildiyi 2004-2014-cü illər ərzində Ağstafa rayonu üzrə əsas sosial-iqtisadi göstəricilər, o cümlədən Ümumi Məhsul Buraxılışının həcmi 4,7 dəfə, sənaye məhsullarının həcmi 6.0 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 2,5 dəfə, tikinti işlərinin həcmi 28,5 dəfə, əsas kapitala yönəldilən investisiyaların həcmi 24,0 dəfə, nəqliyyat xidməti 2,3 dəfə, rabitə xidməti 3,0 dəfə, ticarət 5,0 dəfə artmışdır.

Dövlət Proqramlarının həyata keçirildiyi dövr ərzində Ağstafa rayon büdcəsinin xərcləri 5,6 dəfə, gəlirləri 10,2 dəfə artmışdır. Nəzərə alsaq ki, 2004-cü ildə gəlirlər xərclərin 12,7 faizini təşkil edirdisə, 2014-ci ildə bu göstərici 23,0 faizə çatmışdır.

2014-cü ildə rayonun sosial-iqtisadi inkişafı sahəsində artan dinamika saxlanılmış və daha da yüksəlmişdir. 2014-cü il ərzində rayon iqtisadiyyatı daha da inkişaf etmiş, ümumi məhsul buraxılışının həcmi 132,0 milyon manata çatmışdır.

"Azərbaycan Respublikasının 2015-ci il Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının qanununa müvafiq olaraq Ağstafa rayonunun 2015-ci il büdcəsi mədaxil üzrə 1.0 faiz artaraq 17.7 milyon manat, mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 13.4 milyon manat, gəlirlər 4.4 milyon manat təsdiq olunmuşdur.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası Ağstafa rayonunda tədbirlər planına uyğun olaraq həyata keçirilmişdir.

Keçən il Azərbaycanda "Sənaye ili" elan edilmişdir və ölkədə bir çox sənaye müəssisəsi yaradılmışdır. Hər bir rayonda sənaye zonasının yaradılması barədə cənab Prezidentin tapşırığına uyğun olaraq tərəfimizdən müvafiq Tədbirlər Planı hazırlanmış və il ərzində icrası həyata keçirilmişdir. Rayonun sənaye müəssisələrinin fəaliyyətinin səmərəli təşkili, sənaye sahəsində sahibkarlıq müəssisələrinin bərpası və yenilərinin yaradılmasına göstərilən qayğı və təbii ehtiyatlardan düzgün istifadəni təmin etməklə 2014-cü ildə rayon iqtisadiyyatında sənaye məhsulunun xüsusi çəkisində 0,5 faiz artıma nail olunmuşdur.

Hesabat ilində dövlət siyasətinin əsas prioritet sahələrindən olan aztəminatlı ailələrin və təqaüdçülərin sosial müdafiəsi istiqamətində əməli işlər görülmüşdür.

2014-cü ildə Ağstafa rayon Əhalinin Sosial Müdafiə Mərkəzində 4219 nəfər sosial müavinət alan qeydə alınmışdır. Aztəminatlı ailələrə müavinətlərin verilməsi, ünvanlı yardımların təyinatında şəffaflığın artırılması üçün tədbirlər görülməli,

"Ağstafa rayonunun 2014-cü ildə sosial-iqtisadi inkişafının yekunları və 2015-ci ildə qarşıda duran vəzifələr barədə" rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin hesabat

MƏRUZƏSİ

Mərkəzə müraciət edən hər bir vətəndaşa diqqət göstərilməlidir.

Ağstafa rayonunda əhaliyə göstərilən poçt xidmətinin keyfiyyətini yüksəltmək üçün Poylu qəsəbəsində poçt şöbəsinin yeni binası tikilib istifadəyə verilmişdir. Ağstafa Poçt Filialı əhaliyə göstərilən xidmətin

keyfiyyətini yüksəltməli və kəndlərdə poçt şöbələri üçün yeni binaların tikintisinin həyata keçirilməsi üçün tədbirlər görməlidir.

Hörmətli yığıncaq iştirakçıları.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları ölkədə iqtisadiyyatın şaxələndirilməsini təmin etməklə qeyri-neft sektorunun, sənaye və kənd təsərrüfatının, infrastrukturun inkişafına və sosial xidmətlərin daha da yaxşılaşdırılmasına təkan vermişdir.

Birinci və ikinci Dövlət Proqramları ilə dəstəklənən tədbirlərin icrasının təmin edilməsi sayəsində Ağstafa rayonunda 2014-cü ildə istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmi 2004-cü illə müqayisədə 2,5 dəfə çoxdur. Həmin dövrdə rayon üzrə taxıl əkini sahəsi 3373 ha artırılmış, əldə olunan məhsulun həcmi 2004-cü illə müqayisədə 1,5 dəfə çox olmuşdur.

Hesabat ilinə yüksək göstəricilərlə daxil olan Ağstafa rayonunun kənd təsərrüfatı məhsulları istehsalçıları həyata keçirilən zəruri tədbirlər nəticəsində 2014-cü ildə də uğurlu nəticələr əldə edilmişdir. Belə ki, 2014-cü ilin məhsulu üçün rayon üzrə 9592 hektar sahədə taxıl əkilmiş və bütün sahələr biçilərək 26761 ton məhsul istehsal olunmuşdur. Hər hektardan məhsuldarlıq 27,4 sentner olmuşdur. Lakin rayonda kənd təsərrüfatı məhsullarının emalı və saxlanması müəssisələrinin olmaması istehsal olunmuş məhsulların emalı və satışı hələ də problem olaraq qalır.

2014-cü ildə rayonun heyvandarlıq sahəsində çalışan fermer və sahibkarları da də müsbət nəticələr əldə etmişlər. Ət istehsalı 90 ton artaraq 1686 tona, süd istehsalı 232 ton artaraq 8696 tona, yun istehsalı 1 ton artaraq 312 tona, yumurta istehsalı 163 min ədəd artaraq 3366 min ədədə çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzlu mal-qaranın baş sayı artaraq 25956 başa, xırda buynuzlu heyvanların baş sayı 173637 başa çatmışdır. Lakin dövlət mülkiyyətində saxlanılan kənd təsərrüfatı müəssisələrinin ötən il fəaliyyəti və əldə etdiyi nəticələr şəxsi təsərrüfatların nəticəsindən dəfələrlə az olmaqla rayon iqtisadiyyatında onların iştirak payı olduqca aşağı səviyyədədir. Bu müəssisələrin işindən geniş danışmağa ehtiyac yoxdur. Onların vergi, sosial sığorta və əmək haqqı borcları ilə ildən ilə yığılıb qalır. Həmin müəssisələrin təşkilati hüquqi formasının dəyişdirilməsi artıq bir zərurətdir. Şəxsi təsərrüfatlardan fərqli olaraq dövlət təsərrüfatlarında xırda buynuzlu heyvanların baş sayı ötən ilin müvafiq dövrünə nisbətən azalmışdır. M. Mikayılov adına Dövlət Damazlıq Kənd Təsərrüfatı İstehsalı müəssisəsində 750 baş, "Dilbaz" atçılıq və Atçılıq zavodunun təsərrüfatında 55 baş azalmışdır. Qoyunçuluq təsərrüfatında 1630 baş, "Dilbaz" atçılıq təsərrüfatında 51 baş quzu az əldə olunmuşdur. Bununla bərabər hər üç təsərrüfatda qaba yem tədarükü tələbatdan az istehsal olunmuş və qüvvəli yem isə ümumiyyətlə, istehsal olunmamışdır.

Aqrar sahədə yeni texnologiyaların tətbiqi və müasir aqrotexniki tədbirlərin həyata keçirilməsinin təşkili istiqamətində də Ağstafa rayonunda zəruri işlər görülür. Belə ki, 2009-cu ildən rayonda Azərbaycan İnvestisiya Şirkəti və Almaniyanın bir neçə şirkətinin təsis etdiyi "Ağstafasüd" MMC və "Ağstafa-Aqroservis" MMC müəssisələri fəaliyyətə başlamışdır. "Ağstafa-Aqroservis" MMC-nin sərəncamında olan 61 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlığı təkcə Ağstafa rayonunda deyil, qonşu rayonlarda da müasir tələblərə uyğun aqrotexniki tədbirləri kompleks şəkildə icra etməklə əkin, səpin və məhsul yığımını həyata keçirməyə imkan verir. Fəaliyyətə başladıqları az zaman içərisində bu müəssisələr istehsal və emal sahəsini daha da genişləndirmiş, yeni layihələrin icrasına başlamışlar.

Kənd təsərrüfatı məhsullarının istehsalında və məhsuldarlığın artırılmasında müasir texnika, gübrə və aqrokimyəvi preparatlarla təmin edilməsi ilə yanaşı suvarma suyu ilə təchizatın da əhəmiyyəti az deyildir. Rayonda kənd sakinlərinin və aqrar qurumların suvarma suyuna olan tələbatı Ağstafaçay Hidroqovşağı İstismar İdarəsi və Ağstafa Suvarma Sistemləri idarəsi tərəfindən ödənilir.

Son illərdə hər iki təşkilat tərəfindən kənd sakinlərini aqrotexniki müddətdə suvarma suyu ilə təchiz edilməsinə cəhd göstərilsə də qənaətbəxş olmayıb. Bunun obyektiv və subyektiv səbəbləri vardır. Belə ki, havaların quraqlıq keçməsi səbəbindən Ağstafaçay Hidroqovşağı İstismar İdarəsinin balansında olan 120 milyon kubmetr su anbarının təbii yağış və sel suları ilə tam dolmaması mövsümi suvarma zamanı rayonda xeyli çətinliklər yaratmışdır. Həmçinin bəzi vəzifəli şəxslərin öz işinə soyuq yanaşması da suvarma

işində süni çətinliklər yaradır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına texnika ilə xidmət üçün yaradılan "Aqrolizinq" ASC-nin Ağstafa Aqroservis xidmətinin fəaliyyəti günün tələblərinə cavab vermir. Bu təşkilatın işi barədə ilboyu ərzində yerlərdə keçirilən Səyyar qəbullarda, eləcə də rayon icra hakimiyyətinə bilavasitə müraciətlərdə tez-tez şikayət olunur. Sərəncamında 72 ədəd müxtəlif kənd təsərrüfatı texnikası ilə sahibkar və fermerlərə xidmət göstərməli olan bu qurumda xidmət haqlarının süni şəkildə şişirdilməsi, baha qiymətə aqrotexniki işlərin görülməsi faktları vardır.

Ağstafa Suvarma Sistemləri İdarəsi bir neçə mənbədən 2014-cü ildə 105.1 mln. kub metr suvarma suyu qəbul edib, sakinlərə 41524 min kub metr su verərək 61840 hektar sahədə suvarma işini yerinə yetirmişdir. Rayonun kənd əməkçilərinin suvarma suyuna olan tələbatı Sudan İstifadə Edənlər Birlikləri vasitəsi ilə həyat keçirilir. Bu birliklər sakinlərlə sahələrin suvarılmasına dair əvvəlcədən müqavilə bağlamalı, növbəlilik qrafiki tutmalı və istifadə olunan suya görə ödənilən vəsaitə qəbz yazmalıdırlar. Lakin su rejiminə dair qrafiklər tutulsa da sahələrin aqrotexniki müddətdə suvarılması təmin olunmur, suvarılmış sahələrdən alınan pullara qəbz verilməsi ləngidilir. Sudan İstifadə Edənlər Birliklərində yaradılan iş rejimi sakinləri qane etmir. Ağstafa Rayon İcra Hakimiyyəti kənd təsərrüfatı məhsulları istehsalçılarının suvarma suyuna olan tələbatının ödənilməsi və su daşıyıcı kanal və arxların təmiri işlərinin aparılmasının təşkili üçün Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin layihələri əsasında iş aparmasına nail olmuşdur. Rayonun Düzqışlaq, Qarahəsənli, Molla Cəfərli, Pirili və Kolxəlfəli kəndlərinin 2943 hektar əkin sahəsi Qazax rayonunun kəndlərinin ərazisindən keçən "Axmaz" arxı vasitəsi ilə suvarılır. Həmin arxın su keçirmə qabiliyyəti az olduğuna və ötürülən suvarma suyunun miqdarı az olduğuna gərə həmin kəndlərin yazlıq və payızlıq bitkilərinin suvarılmasında həmişə çətinliklər yaranır. Göstərilən halların aradan qaldırılması ilə əlaqədar olaraq Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin "İFAD" təşkilatı ilə əməkdaşlıq edilərək "Şimal-Qərb kənd inkişaf" layihəsi çərçivəsində həmin kəndlərdə 41,4 km. və həmçinin Sadıqlı, Muğanlı, Ağ göl, Böyük Kəsik kəndlərində isə 46,8 km. suvarma arxlarının qazılıb betonla üzlənməsi və hidrotexniki qurğuların quraşdırılması işi başa çatdırılmışdır.

Kənd sakinlərinin suvarma suyuna olan ehtiyacının ödənilməsində subartezian quyularından səmərəli istifadə olunmasının da rolu vardır. Qəsəbə və kəndlərdə olan subartezian quyularının ilboyu işləməsi və onlara texniki qulluq edilməsi rayon İcra hakimiyyətinin diqqətində olmuşdur. Bununla yanaşı yerlərdə yeni quyuların qazılması və istismara verilməsi istiqamətində də məqsədyönlü iş aparılmışdır. 2014-cü ildə rayonun Köçəsgər, Qırılı, Poylu, Aşağı Kəsəmən, Köhnə-qışlaq, Xılxına, Göycəli, Aşağı Göycəli və Pirili kəndlərində olmaqla 11 ədəd subartezian quyusunun qazılması əhalinin suvarma suyu ilə təminatının xeyli yaxşılaşmışdır. Bu istiqamətdə aparılan işin nəticəsi olaraq cari ildə rayonumuzda yeni quyuların qazılması davam edəcəkdir.

Dağ Kəsəmən kəndinin sel təhlükəsinin qarşısının alınması üçün bəndlərin tikintisi həm də rayonun suvarma suyuna olan tələbatının ödənilməsində müsbət rol oynayacaqdır.

Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamından irəli gələn vəzifələrin şəffaf, hamı üçün açıq şəkildə təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşüdür. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən verilən subsidiyaların qanunauyğun hesablanması və şəffaf şəklidə ödənilməsi həyata keçirilmişdir. Subsidiya alan şəxslərin adlı siyahısı və alacaqları məbləğ Rayon İcra Hakimiyyətinin internet səhifəsində yerləşdirilmiş, həmçinin rayon qəzetində çap edilərək siyahı ictimailəşdirilmişdir. Bu məsələdə ölkə Prezidentinin verdiyi tapşırığın icrası hər bir məmurun şərəf məsələsidir və hər hansı korrupsiya faktına yol verən işçi ən sərt şəkildə cəzalandırılacaqdır.

Rayonda təbiətin mühafizəsi və ekologiyanın qorunması məqsədi ilə "IDEA" İctimai Birliyinin təşəbbüsü ilə 2014-cü ilin oktyabr-noyabr aylarında "Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində həyata keçirilmiş ağacəkmə kompaniyası nəticəsində şəhərdə və yol kənarlarında 10600 ədəd, həmçinin meşə

"Ağstafa rayonunun 2014-cü ildə sosial-iqtisadi inkişafının yekunları və 2015-ci ildə qarşıda duran vəzifələr barədə" rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin hesabat

MƏRUZƏSİ

massivində 20 min ədəd yeni ağac tingi əkilmişdir. Belə tədbirlərimiz 2015-ci ildə də davam etdiriləcəkdir.

Ağstafa rayonunun qoruq və meşə sahələrində təbiətin qorunması, bu sahədə qaydalara əməl olunmasının təmin edilməsi ilə Meşə Mühafizə və Bərpası Müəssisəsi və Qarayazı Dövlət Təbiət Qoruğu məşğuldur.

Meşə Mühafizə və Bərpası Müəssisəsi 4017 hektar, Qarayazı Dövlət Təbiət Qoruğunun 9658 hektar meşə ərazisinə xidmət edir. 2014-cü ildə meşə və qoruq qaydalarının pozulması ilə bağlı 49 iş sənədləşdirilərək akt-protokol tərtib edilmişdir. 2014-cü ildə 25 ha sahədə meşə əkini aparılmışdır. Yasaq ərazi hesab olunan qoruqda nadir ağacların və heyvanların qorunub saxlanması rejiminə tam əməl olunmasını demək mümkün deyil. Müəssisənin və qoruğun meşələrində qanunsuz ağac kəsilməsi, yegerlərə məxsus mal-qaranın meşədə qanunsuz otarılması halları davam edir. Hər iki təşkilatın rəhbərliyi deyilən iradlardan əməli nəticə çıxartmalı və cari ildə rəhbərlik etdikləri sahədə ciddi nizam-intizam yaratmalıdırlar.

Ağstafa rayon Baytarlıq idarəsi Dövlət Baytarlıq Xidməti tərəfindən verilmiş epizootik tədbirlər planı əsasında rayon ərazisində mövcud olan bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında müalicə və profilaktik tədbirlərin aparılması həyata keçirilmişdir. Aparılan tədbirlərin nəticəsində rayon ərazisində heç bir yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Ağstafa rayonu ərazisində hələ də iri və xırda buynuzlu heyvanlar baytar-sanitariya qaydalarına cavab verməyən həyətlərdə kəsilir. Bəzən heyvanların yol kənarında kəsilməsinə və satılmasına rast gəlinir ki, bu da baytar-sanitariya qaydalarına tamamilə ziddir.

Qeyd edilənləri nəzərinizə çatdırmaqla bir daha bildirirəm ki, 2014-cü il rayon kənd təsərrüfatı məhsullarının istehsalında uğurlu il olmuşdur və bu uğurlar respublikamızda ilk dəfə Kənd Təsərrüfatı Nazirliyi ilə birgə keçirilən Məhsul bayramında bir daha nümayiş olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2015-ci il tarixli Sərəncamı ilə 2015-ci il Azərbaycan Respublikasında "Kənd təsərrüfatı" ili elan edilmişdir. Həmin Sərəncamdan irəli gələn vəzifələrin icrası üçün rayon İcra hakimiyyəti tərəfindən tədbirlər planı hazırlanmışdır.

Hörmətli yığıncaq iştirakçıları.

Hesabat ilində rayonda torpaqların uçotunun aparılması, rayonun dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən istifadənin və istifadəyə nəzarətin qanuna müvafiq qaydada tənzimlənməsi sahəsində müəyyən iş aparılmışdır. Rayonda torpaqlardan istifadənin səmərəliliyinin artırılması, onların idarə edilməsində qanuna zidd halların aradan qaldırılması istiqamətində Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rayon şöbəsinin və bələdiyyə orqanlarının fəaliyyətinin əlaqələndirilməsinin təmin edilməsi istiqamətində də zəruri addımlar atılmışdır.

"Azərbaycan Respublikası Ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2010-cu il tarixli 218 saylı Fərmanına əsasən rayonda kənd inzibati ərazi dairələrinin elektron xəritələrinin hazırlanması işinə başlanılmışdır. Eyni zamanda bələdiyyə ərazilərinin hüdudlarında bələdiyyələrin mülkiyyət hüququna dair dövlət aktlarının hazırlanması, habelə bələdiyyə ərazilərinin elektron xəritələrinin tərtibi işləri də davam etdirilir. Belə ki, cari ildə rayonun Həsənsu, Ağ-göl kəndlərinin və Vurğun bələdiyyəsinin sərhəd hüdudları naturada dəqiqləşdirilmiş və elektron xəritələri tərtib edilmişdir.

Rayonda torpaq münasibətlərinin tənzimlənməsi və daha da təkmilləşdirilməsində hərrac və ya müsabiqələrin təşkil edilməsi mühüm rol oynamaqla yanaşı, torpaqların istifadəsi və mühafizəsi sahəsində dövlət nəzarətinin daha da gücləndirilməsini və bu sahədə şəffaflığı təmin edir. "Torpaqlardan istifadəyə və onların mühafizəsinə Dövlət Nəzarəti haqqında Əsasnamə"nin tələblərinə zidd olaraq rayonun dövlət və bələdiyyə mülkiyyətinə aid olan və hüquqi və fiziki şəxslərin istifadəsində, icarəsinə və mülkiyyətinə verilən torpaqlardan qanunauyğun istifadənin vəziyyətində nöqsanlar vardır. Belə ki, hələ də dövlət və bələdiyyə mülkiyyətindən icarəyə və ya istifadəyə verilən torpaqlardan istifadəsiz şəkildə qalanları vardır. İstifadə olunmayan torpaq sahələri ilə bağlı müqavilələr dərhal ləğv olunmalıdır. Torpaq sahələrinin təyinatının dəyişdirilməsi və həmin ərazidə tikinti işlərinin aparılması da yolverilməzdir. DT və XK-nin Ağstafa rayon şöbəsi bu məsələlərə çevik münasibət bildirməli, torpaq qanunvericiliyinin tələblərinin həyat keçirilməsini təmin etməlidirlər.

Qeyd olunanları rayon Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rayon şöbəsinin müdiri Ələkbər İsgəndərovun nəzərinə çatdırıram, ondan işində əməli dönüş yaratmasını və torpaqlardan səmərəli istifadənin təmin olunmasını tələb edirəm.

Hörmətli yığıncaq iştirakçıları.

Respublikanın bütün regionlarında gedən abadlıq, quruculuq və yenidən qurma işləri Ağstafa rayonunda da özünü qabarıq göstərir. Ötən müddətdə mövcud potensialın səmərəli istifadə olunması, rayonun malik olduğu büdcə vəsaitlərinin, əmək ehtiyatlarının və digər resurslarının konkret istiqamətə yönəldilməsi, ən başlıcası, Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı Dövlət Proqramlarından, Fərman və Sərəncamlarından irəli gələn vəzifələrin həyata keçirilməsi Ağstafa rayonunun hazırkı uğurlarını şərtləndirən başlıca amillərdəndir.

2014-cü ildə rayonda həyata keçirilən işlər həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə geniş miqyaslı olmaqla konkret və ünvanlıdır. İlin əvvəlindən malik olduğumuz vəsait və resursları düzgün qiymətləndirərək, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin koordinasiya edilməsi, icrası ləngiyən məsələlər barəsində təşəbbüskarlığın ələ alınması istiqamətində Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən zəruri addımlar atılması təmin edilmişdir. Belə ki, Dövlət Proqramları ilə tənzimlənən məsələlərlə yanaşı bir sıra vacib problemlərin yerli imkanlar hesabına həllinin təmin olunması üçün 2014-cü ildə "Ağstafa rayonunun Sosial-İqtisadi İnkişafı Proqramı

"Ağstafa rayonunun 2014-cü ildə sosial-iqtisadi inkişafının yekunları və 2015-ci ildə qarşıda duran vəzifələr barədə" rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin hesabat

MƏRUZƏSİ

(2014-2018-ci illər)" tərtib və təsdiq edilmişdir. Ümumi Dövlət Proqramları ilə paralel yerli inkişaf proqramının icrasının həyata keçirilməsi rayonun iqtisadi potensialının düzgün istifadəsini təmin etməklə yanaşı həyata keçirilən bütün layihələrdə nəzərdə tutulmayan digər işlərin yerli imkanlar hesabına yerinə yetirilməsini də təmin edir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Ağstafa rayonunun Sosial-İqtisadi İnkişafı Proqramı (2014-2018-ci illər)"na uyğun olaraq 2014-cü ildə Ağstafa rayonunda abadlıq-quruculuq, yenidənqurma və təmir-tikinti sahəsində nəzərdə tutulan tədbirlərin icrası təmin edilmişdir.

Ağstafa şəhərinin küçə və meydanların yenidən qurulması, abadlıq işlərinin aparılması və yaşıllıq zolaqlarının salınması daim diqqət mərkəzində olmuşdur. Ötən illərdə şəhərin S.Vurğun, C.Cabbarlı, 20 Yanvar, A.Aslanov, M.Allahverdiyev, M.Ə.Rəsulzadə, R.Alıcanov və digər küçələrində abadlıq-yenidənqurma işləri başa çatdırılmışdır. Hesabat ilində də bu iş sürətlə davam etdirilmiş və Ağstafa şəhərinin N.Nərimanov. S.Ağamalıoğlu, B.Mirzəyev və R.Əsədov küçələrində təmir, tikinti və abadlıq, yenidən qurma işləri aparılmışdır. Həmin küçələrdə telefon rabitəsi, elektrik və qaz xətləri təhlükəsiz yerlərə çəkilmiş, küçələrin estetik cəhətdən baxımlı olması üçün zəruri addımlar atılmışdır. Diqqətinizə çatdırım ki, ümumilikdə bu küçələrə 6459 p/m bordur qoyulmuş, 7700 kv. metr səki daşı düzülmüş, 115 ədəd müasir işıqlandırma direyi qoyulmuş, küçələrin hasarlarında 1240 kv. metr suvaq işi aparılmış, daş hasarların üstünə 840 kv. metr mini dam örtüyü qoyulmuş, 270 p/m dekorativ taxta hasar çəkilmiş və 27200 kv. metr yeni asfalt örtüyü salınmış, köhnə tikililər bərpa olunmuş, səkilər abadlaşdırılmışdır. Görülmüş işlər sayəsində bu gün Ağstafa şəhəri respublikanın ən gözəl, təmiz və abad, işıqlı şəhərlərindən birinə çevrilib. Şəhərimizin sakinləri və rayonumuza gələn qonaqlar təmizliyi və abad olması ilə diqqət çəkən müasir tikililərin üstünlük təşkil etdiyi Ağstafa haqqında fəxrlə danışırlar.

Dövlət mənzil fondunun qorunub saxlanılması, mənzillərin, çoxmənzilli yaşayış binalarının istismarının uzun müddətli olmasını təmin etmək məqsədi ilə cari və əsaslı təmir işlərinin vaxtında aparılması, binaların dam örtüklərinin yenilənməsi və digər zəruri təmir işlərinin aparılması işinə diqqətlə yanaşılmışdır. Məlumat üçün bildirim ki, ötən illərdə Ağstafa şəhərində 20 yaşayış binasında əsaslı və cari təmir işləri aparılmış, binaların blok və pilləkən qəfəsləri təmir edilmiş, hər bir girişə qapı qoyulmuş, pəncərələr şüşələnmiş, işıqlandırma təmin edilmiş, 11280 kv. metr dam örtüyü dəyişdirilmişdir. Bu istiqamətdə işlərimiz 2014-cü ildə də davam etdirilmişdir. Şəhərin R.Alıcanov küçəsindəki 3 ədəd dəmir yol binasının və C.Cabbarlı küçəsindəki çox mənzilli yaşayış evinin dam örtükləri yenilənmiş, 20 yanvar küçəsindəki 2 ədəd çoxmənzilli yaşayış evlərinin giriş blokları və pilləkən qəfəsləri əsaslı təmir edilmiş, blokların qapı-pəncərələri dəyişdirilmişdir. Bütövlükdə son 2 il ərzində Ağstafa şəhərində 25-dən artıq çoxmənzilli binada əsaslı və cari təmir işləri aparılaraq 16741 kv. metr dam örtüyü təzələnmişdir. Aparılan təmir abadlıq işləri sayəsində həmin binalarda yaşayan sakinlərin rahatlığının təmin olunması ilə yanaşı binaların memarlıq baxımından görünüşü yaxşılaşdırılmış, şəhərin ümumi dizaynına uyğunlaşdırılmışdır. Aparılan təmir, tikinti və abadlıq işləri ilə yanaşı rayondakı yaşayış binaları və sosial obyektlərin istilik sistemlərinin bərpası və ya yenidən qurulması kimi məsələlər də diqqətdən kənarda qalmamışdır. Belə ki, hesabat ilində Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən daxili imkanların səfərbər edilməsi yolu ilə şəhərin Ə.Nəbiyev küçəsindəki 16 mənzilli binaya istilik sistemi çəkilmiş, hər bir mənzilə kombi tipli qızdırıcı qoyulmuşdur. Eyni zamanda rayonun Yenigün kənd və Vurğun qəsəbə məktəblərində də yeni istilik sistemi quraşdırılmışdır. Ağstafa şəhər 2 saylı körpələr evi-uşaq bağçası və Poylu kənd 1 saylı uşaq bağçasında əsaslı təmir və yenidən qurma işləri aparılmış, hər iki bağçada müasir istilik sisteminin qoyulması təmin edilmişdir. Belə demək mümkündürsə son 3 il ərzində rayonda istifadəyə verilən və ya əsaslı təmir olunan hər bir binada mütləq şəkildə istilik sistemin olması məsələsini ciddi nəzarətdə saxlamışıq. Görülən tədbirlər sayəsində Ağstafa şəhər humanitar texniki təmayüllü liseyin, Qaçaq Kərəm kənd orta məktəbinin və bir neçə yaşayış binasının istilik məsələsi qaydaya salınmışdır. Rayonun yeni tikilən və birtipli layihə əsasında əvvəllər inşa olunan bütün məktəblərində istilik məsələsi həll edilmiş, digər məktəblər odun və ya maye yanacaqla təmin olunurlar. Lakin təəssüf ki, hələ də bu istiqamətdə problemlərimiz qalır. Bir tipli layihə əsasında tikilmiş Poylu kənd və Muğanlı kənd orta məktəblərində istilik sistemi yoxdur və bu bizi ciddi narahat edir.

Dövlət Proqramına uyğun olaraq rayonda 220 şagird yerlik Kolxəlfəli və 300 şagird yerlik Eynallı kənd tam orta məktəbi tikilərək istifadəyə verilmişdir. Bu məktəblərin istifadəyə verilməsi ilə 2003-cü ildən bəri rayonda yeni tikilən məktəblərin sayı 15-ə çatmışdır. Cari ildə Saloğlu, Yenigün məktəblərində əsaslı, digər məktəblərdə isə cari təmir işlərinin aparılması təmin edilmişdir. Avtomobil yolu infrastrukturunun yenilənməsi və yol tikintisi məsələsi də diqqətdə saxlanılmışdır. Rayonun Kür çayının sol sahilində yerləşən qəsəbə və kəndləri ilə avtomobil əlaqəsinin yaxşılaşdırılması sahəsində Ağstafa-Poylu-Gürcüstan dövlət sərhədi avtomobil yolunun istifadəyə verilməsinin mühüm iqtisadi və siyasi əhəmiyyəti vardır. Heç kimə sirr deyil ki, yolsuzluq ucbatından bu yaşayış məntəqələrinin sakinlərinin narahatçılığı çox idi. Kür çayının sol sahilində yerləşən 11 yaşayış məntəqəsinin 20 minə kimi sakinin yol problemi həll olundu. Kifayət qədər ictimai-siyasi və iqtisadi əhəmiyyət daşıyan bu layihənin icra olunması hər şeydən əvvəl, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ağstafaya və ağstafalılara diqqət və qayğısının təzahürüdür. Bütövlükdə son illər ərzində rayonda 125 km-dən artıq avtomobil yoluna asfalt döşənməsi təmin edilmiş, 287 km. kəndarası və kənd daxili yollar cari və əsaslı təmir olunmuşdur.

Hesabat ilində tərəfimizdən rayonun qəsəbə və kəndlərində də müəyyən işlər görülmüşdür. Kəndlərdə sosial təyinatlı obyektlərin əsaslı və cari təmiri, yeni təhsil , səhiyyə binalarının tikintisi, uşaq bağçalarının əsaslı yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması kimi məsələlər fəaliyyətimizin prioritet istiqamətləri olmuşdur. Əvvəlki illərdə olduğu kimi hesabat ilində də qəsəbə və kənd yaşayış məntəqələrində səhiyyə və mədəniyyət ocaqlarının əsaslı təmiri və müasir avadanlıqlarla təmin olunması işinə ciddi yanaşılmışdır. Rayonun Ermənistanla həmsərhəd olan Köhnəqışlaq kəndində müasir tibb məntəqəsi tikilərək istifadəyə verilmiş, Poylu kəndində 1 saylı uşaq bağçası-körpələr evi yenidən qurularaq kənd sakinlərinin istifadəsinə verilmişdir. Hazırda Ağstafa şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə inşasına başlanmış 100 yerlik şəhər 5 saylı, Dağ Kəsəmən kəndində 100 yerlik yeni körpələr evi-uşaq bağçalarının tikintisi işləri uğurla davam etdirilir. Eyni zamanda rayonun Vurğun qəsəbəsində həkim məntəqəsinin əsaslı təmiri işləri aparılır, Rayon Mərkəzi Xəstəxanasının Fizioterapiya və Reabilitasiya Mərkəzində yenidən qurma işləri tamamlanmaq üzrədir. Doğum şöbəsinin dam örtüyünün dəyişdirilməsi və qapı, pəncərələrin yenilənməsi işləri həyata keçirilir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Ağstafa rayonunun Sosial-İqtisadi İnkişafı Proqramı (2014-2018-ci illər)"nda nəzərdə tutulan tədbirlərin icra olunması üçün tərəfimizdən bütün zəruri işlər görülür. Ağstafa-Aşağı Kəsəmən-Zəlimxan, Ağstafa-Vurğun-Köçəsgər və Ağstafa-Vurğun-Köhnəqışlaq avtomobil yollarının əsaslı təmir işlərinə başlanması istiqamətində texniki sənədləşmə işləri aparılır. Azərbaycan Respublikasının Prezidenti cənab ilham Əliyevin 30 iyun 2014-cü il tarixli "Ağstafa rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq Ağstafa şəhərində Musiqi və İncəsənət Mərkəzinin tikintisi və rayon Mədəniyyət evinin əsaslı təmiri işlərinə ötən ilin sonlarından başlanılmışdır. Qeyd edim ki, bu Mərkəzin tikintisi Ağstafanı bölgənin mədəni mərkəzi kimi formalaşmasını təmin edəcəkdir. 1974-cü ildən fəaliyyətə başlayan və Ağstafa şəhər 1 saylı orta məktəbinin emalatxana binasında yerləşən H.Arif adına Ağstafa şəhər 7 illik musiqi məktəbinin binası qəzalı və şəraitsiz olduğundan yeni binanın tikintisinə ciddi ehtiyac vardır. Ötən hesabat yığıncağında yerdən qaldırılan məsələlərdən biri də yeni Musiqi məktəbinin tikintisi ilə bağlı olmuşdur. Eksklüziv layihə əsasında ud formasında tikilən bu bina öz gözəlliyi ilə də diqqət çəkir. Yeni binanın tikilməsi ilə burada 350 şagirdin təhsil almasına şərait yaradılacaqdır. Yeni musiqi və incəsənət mərkəzinin tikilməsi üçün Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən 1,5 ha torpaq sahəsi ayrılmışdır. Burada yeni bina ilə yanaşı incəsənət parkının yaradılması, ərazidə geniş sahədə yaşıllı-